# Dözüm ver, göylərdən bac alan dağlar



## Şöhlət ABBAS

Xoş gördük, əziz oxucu!

Kitabı gözdən keçirmək qərarına gəldiyin üçün sənə minnərdaram. Ümid edirəm ki, xoşuna gələcək və bu misralarda öz həyatın, məhəbbətin, yaşantılarınla səsləşən çalarlara rast gələcəksən. Elə mənə əziz və günlərimin, illərimin xatirələrindən süzülüb gələn bu şeirlər də, hisslərimin, duyğularımın, yaşantılarımın bəhrəsidir. Əgər bircə şeirim, misram da xoşuna gələrsə, deməli, mən xoşbəxt şairəm...

Mən 1959-cu il noyabrın 14-də Laçın rayonunun Mişni kəndində sadə kolxozçu ailəsində anadan olmuşam. Hələ məktəbdə oxuyandan yaradıcılığa meylim olub. Yadımdadır, 4-cü sinifdə oxuyanda müəllim bizə “Böyüyəndə nə olacağam” mövzusunda inşa yazdırdı. Mən yazdım ki, yazıçı olacağam.

Həyatda nə qazanmışamsa, buna görə qoynunda doğulub-böyüdüyüm Ərtəpə dağına, doğma Laçına, kəndimiz Mişniyə, məni ağuşuna almış o saf, təbii mühitimə, atam Qaçay kişiyə (yaxşı şair təbi var idi) və anam Səriş xanıma, müəllimlərimə (xüsusilə də birinci sinifdə əlimdən qələm tutub mənə oxuyub-yazmağı öyrədən rəhmətlik Fətiş müəllimə) minnətdaram.

İlk şeirimi Tapdıq Nəcib “Laçın” qəzetində dərc etdirmişdi. Respublika mətbuatında ilk şeirimi isə şair Fikrət Sadığın xeyir-duası ilə Vaqıf Bəhmənli “Sovet kəndi” qəzetində dərc etdirmişdi. Əlbəttə, ötən illər ərzində çoxlu şeirlərim, bədii-publisistik yazılarım müxtəlif mətbuat orqanlarında dərc olunub. Amma ilk kitabımın işıq üzü görməsi məhz 2019-cu ilə - 60 yaşıma təsadüf edir. Əgər bir şeirim, bir misram xoşuna gələrsə, özümü xoşbəxt hiss edərəm.

***Müəllif***

### MƏNİ BAĞIŞLAMA!..

Düşmən tapdağında qalan kəndimdə
Atamın, anamın inləyən ruhu,
Məni bağışlama qisas almasam,
Mənə bağışlama belə günahı!

Bumbuz sularından içdiyim bulaq,
Yerdə qalacaqsa o qızın ahı,
Üstündə bu eşqə düşdüyüm bulaq,
Mənə bağışlama belə günahı!

Dözüm ver, göylərdən bac alan dağlar,
Sən mənə kömək ol, Qisas allahı!
Qeyrətə tapınıb ucalan dağlar,
Mənə rəva görmə belə günahı,
Mənə bağışlama belə günahı!

### LAÇINDA QALDI

Gözüm bir gözəlin şən baxışında,
Əllərimin izi saçında qaldı.
Getdim dünyaları gəzdim-dolaşdım,
Yenə də ürəyim Laçında qaldı.

Qartal qanadlandı qaya başından,
Xınalı kəkliklər səkdi daşından;
Təbiət loğmandır yaranışından,
Ümidim, gərəyim Laçında qaldı.

Bir kino lenti tək keçir gözümdən,
İnsanları mərd, vüqarlı, dözümlü,
Həkəri - qəlblərə axan sözümdü,
O ilham mənbəyim Laçında qaldı.

### BİZİ

*(nəğmə)*

*Musiqisi Emin Sabitoğlunundur*

Yağı tapdağında qalan obalar,
Çağırır, eloğlu, haraya bizi.
Sarılaq silaha, gələk qeyrətə,
Qoymayaq dost-düşmən qınaya bizi!

**Nəqərat:**
Birləşək, birləşək, dönək tufana,
Bu ana torpağı azad eyləyək,
Sınıq könülləri abad eyləyək!

Gəl yazaq tarixi qan yaddaşıyla,
İgid savaşıyla, ər savaşıyla!
Vətən fəxr eyləsin vətəndaşıyla,
Bu hünər tanıtsın dünyaya bizi!

**Nəqərat:**
Birləşək, birləşək, dönək tufana,
Bu ana torpağı azad eyləyək,
Sınıq könülləri abad eyləyək!

* * *

Söykəyib başını məzar daşına,
qərq olub qəlbinin qəm yaddaşına,
Ağlama, ağlama, şəhid anası!
Sən də sil gözünü, ay gəlin-bacı!
Bu yasdan qurtarar bu Vətən, torpaq,
Dünəni, düşməni unutmaz ancaq.

### BÜLBÜL

Səhər-axşam budaqlarda
Həzin-həzin ötən bülbül,
Nə acıdır yurd həsrəti,
Nə şirindir Vətən, bülbül!

Elə dərddi çəkilməzdi,
Onsuz qəddim bükülməzdi.
Gedən getdi, dözən dözdü,
Yox kamına yetən, bülbül.

Kəc baxışlar məni yordu,
Qəriblərə dünya dardı.
Qazandığım ağ saçlardı,
Gəncliyimdir itən, bülbül.

### QONŞUMUZDA BİR GƏLİN VAR

Qonşmumuzda bir gəlin var,
Əzizidir bütün elin.
Qonşumuzda bir gəlin var-
Bir üzü qız, biri gəlin.

Bir saçını ağ hörübdür, birin qara,
Göz dikibdir bu yollara:
«Harda qaldı, bəlkə ölüb?
Bəlkə, bəlkə..» - cavab tapmır suallara.

1941-45,
Üçkünc, qısa,
ya kağıza,
ya qəzetin ağ yerinə,
ya da karton parçasına
Məktub yazan bir əskərin
Ürəyi var bu sandıqda, özü hanı?
Toy gününün səhəricə yola düşən
İgid ərin üzüyü var bu sandıqda, özü hanı?

Bir gəlin var qonşumuzda,
Bir qarı var qonşumuzda.
Bal vüsalın bircə günlük
Nübarı var qonşumuzda.

### DUYĞULAR

O kənd həmin kənddimi?
Bənövşəsi bitdimi?
Sahibsiz qalan iti
Dözəmməyib getdimi?

Cəngəl, çayır örtübmü?
Yolu, izi itibmi?
Yağmalayan yağılar
Məqsədinə yetibmi?

Xocalı, Şuşa, Laçın,
Qeyrətlə qoşa Laçın.
Dərddaşı Kəlbəcərlə
Verib baş-başa Laçın.

O kəndin oğlu hanı?
O dəli-dolu hanı?
Bəlkə yolu yoğrulub,
Gözü yumulub, hanı?

Gülü-çiçəyi necə?-
Kim dərə, əzə-keçə?
Əri pərən-pərən,
Ərgəni küçə-küçə...

O kənd həmin kənddimi?
Xoş günləri bitdimi?
Kürsü leysanı yağdı,
Sel apardı, itdimi?

Nə vaya-aha qalıb,
Ümid Allaha qalıb;
Birliyə, kişiliyə,
Bir də sabaha qalıb.

### QURTARAQ, ELOĞLU, ELLƏRİMİZİ!

*(Aşıq Samirənin ifasında «Misri» havasına qulaq asarkən)*

«Misri» haraylayır, cəngə çağırır,
Qeyrətə səsləyir, qeyrətə bizi.
Yumruğa döndərək əllərimizi,
Qurtaraq, eloğlu, ellərimizi!
Qurtaraq, qurtaraq ellərimizi!

Yurdun torpağına, daşına dönək,
Dağının-daşının başına dönək!
Dağların gözünün yaşına dönək,
Suvaraq həsrətlə çöllərimizi,
Qurtaraq, qurtaraq ellərimizi!

Gülsün Xocalının qızıl laləsi,
Şuşaya, Ağdama, Laçına dönək!
Dağların namusdan tacına dönək,
Utanıb qısmayaq dillərimizi,
Qurtaraq, qurtaraq ellərimizi!

Başımız dik olsun, alnımız açıq,
Ümid yer verməsin hissə, gümana!
Gərdiş bir düşməndir aha-amana,
Gəl möhkəm bağlayaq bellərimizi,
Qurtaraq, qurtaraq ellərimizi!

Hər kəs günahını qoysun ortaya,
Məhkəmə qursunlar Həkəri, Araz.
Belə vicdan olmaz, kişilik olmaz,
Güllə sığallasın tellərimizi,
Qurtaraq, qurtaraq ellərimizi!

### MƏNİ

*«Hər gecə yuxuda Laçını görürəm» deyən həkim dostum Mürsəl Həmidova ithaf edirəm.*

Hər gecə görürəm yuxularımda,
Xəyallar aparır gündüzlər məni.
Laçın çiçəklənir duyğularımda,
Bu həsrət xırpalar, dərd üzər məni.

Quşqonmaz yerlərdən keçib gedərəm,
Qədəri-qisməti seçib gedərəm,
Qartallı dağlara köçüb gedərəm,
Çiçək qucaqlayar, gül bəzər məni.

Bir saflıq boylanar bahar-qışından,
Kəkliklər oxuyar qaya başında,
Yenə də sevilib-sevən yaşımda
Tilsimlər qıyqacı bir nəzər məni.

Məhrəm xatirələr sızıldar-sızlar,
Gecikər, vaxtında açılmaz yazlar,
Qalar boynubükük bənövşə qızlar,
Saralar, gözləyər nərgizlər məni.

Hər gecə görürəm, yuxum çin olar,
Həsrət uzaq duşər, qüssə gen olar,
Laçın qollarını açan gün olar,
Elin şad günündə dost gəzər məni.

### MÜBARİZƏ HİMNİ

Qeyrətlilər getdi, kişilər getdi,
Dönüklər, acizlər gizləndi qaldı.
Şəhid qardaşımız bizi tərk etdi,
Qorxaq ölə-ölə gözlədi qaldı.

**Nəqərat:**
Qalxsın Şuşa, Laçın, qalxsın ayağa,
Bakım, Sumqayıtım dönsün dayağa!
Əsir Qarabağım qurtulsun deyə,
Eloğlum, atılaq mübarizəyə!

Keçsin qan-qadadan, keçsin zülümdən
Ölümün gözünə dik baxan igid!
Həmişə yaşayar nəğmələrimdə
Qələbə gününə darıxan igid.

**Nəqərat:**
Qalxsın Şuşa, Laçın, qalxsın ayağa,
Bakım, Sumqayıtım dönsün dayağa!
Əsir Qarabağım qurtulsun deyə,
Eloğlum, atılaq mübaricəyə!

Qələbə müjdəsi tutsun dünyanı,
Yolumuz bələnsin gül dənizinə!
Payız buludu tək dolan ananın
Bir bahar günəşi doğsun üzünə!

**Nəqərat:**
Qalxsın Şuşa, Laçın, qalxsın ayağa,
Bakım, Sumqayıtım dönsün dayağa!
Əsir Qarabağım qurtulsun deyə,
Eloğlum, atılaq mübarizəyə!

### MİŞNİDƏ BAHAR

Təbiət çiçəyə, gülə bürünmüş,
Baharın xoş vaxtı, oğlan çağıdır.
Dərələrdən əsən sərin küləklər
Ürəkdəki dərdi-qəmi dağıdır.

Qızılbulaq: «Bal suyumdan iç» - deyir,
Korca bulaq: «Gül-çiçəkdən seç» - deyir,
Kövşən: «Bacarırsan burdan keç» - deyir,
Yenə «El yolu»nun təmtərağıdır.

At belində qara gözlü gözəllər
Şax dayanıb, azad, sərbəst gəzərlər;
Oğrun-oğrun baxıb, nazla süzərlər,
İti baxışları mənə yağıdır.

Üzə çıxıb dağın min cür neməti,
«Maral bulağı»nın artıb ləzzəti.
«Daş bulaq» - bax bu ad düz deyil qəti,
Bu ki təbiətin «Naz bulağı»dır.

Baş-başa veribdir mərsinlə əzgil,
Müğənni qızlardır quşlar elə bil;
Yarpaqlanan təkcə meşələr deyil,
Həm də ki Şöhlətin ilham bağıdır.

### YADIMA DÜŞDÜ

Bilirsən, gözəl qız, səni görəndə
İlhamlı çağlarım yadıma düşdü.
Hər cür xasiyyətli dost-tanışlarım,
Yaxın-uzaqlarım yadıma düşdü.

O şairə bacım, o gözəl insan...
Həyatda itirmək, ah, necə asan!
Bacarıb dözəsən, tablı olasan,
Gülər dodaqlarım yadıma düşdü.

Gərdişdən küsümmü, gileylənimmi,
Odur, sevincimin odur qənimi.
Şirin dost gülüşü - dərdin məlhəmi,
Sözlü qonaqlarım yadıma düşdü.

Az qaldı gözlərim çaşa, aldana:
Nə qədər bənzərmiş insan insana;
De, necə gəlməsin qəlb həyəcana,
Odlu növraqlarım yadıma düşdü.

Baxışlar - mənalı, baxışlar - dərin,
Bağışlarmı görən aciz əsirin?
Dağılanda üzə ipək tellərin,
Güllü yaylaqlarım yadıma düşdü.

İnsafsız, kəm baxma, kəm baxma belə,
Ürəyim təsəlli tapmamış hələ.
Şöhlət, dərd-ağrılar çəkəndə zilə,
Qayğısız vaxtlarım yadıma düşdü.

*(Davamı 9-cu səhifədə)*

# SƏN MƏNƏ KÖMƏK OL, QİSAS ALLAHI!

*(Əvvəli 8-ci səhifədə)*

### SİZİNLƏ...

İstəyirəm vidalaşam
Dağlar, sizinlə, sizinlə.
Keçirmişəm acı-şirin
Çağlar sizinlə, sizinlə.

Zalım azar çəkir zilə,
Xatirələr gəlir dilə;
Qəlbim qəmi bölə-bölə
Ağlar sizinlə, sizinlə.

Şöhlət bu gənclik yaşında
Mənə gəzir hər daşında;
Köçər, ellər yaddaşında
Saxlar sizinlə, sizinlə.

### HƏKƏRİDƏN ƏSƏN KÜLƏK...

Gözlərimdən qan-yaş axır,
Qəlbim intizarda qalıb.
Dağlarımdan ayrılmışam,
Ürəyim dağlarda qalıb.

Xəyalımdan Vətən keçir-
Tapdaqlarda qalan Vətən.
Yuxularımda gül açan,
Yad əlində talan Vətən...

Laçınımla Şuşam baş-başa qalıb
Gözləri yol çəkən analar kimi.
Zirvəm-ümidim də yadlaşıb qalıb
Gözündən qan tökən analar kimi.

Qarışıb axşam-səhərim,
Könül evim ələk-vələk.
Şair, hayqır qələbəyə,
Ya da həyatından əl çək!

Yollar darmadağın, yollar yoğrulub,
Öz ata evimə gedə bilmirəm.
Məhzun başdaşları sınıb-uçulub,
Anamı ziyarət edə bilmirəm.

Narahat ruhları başımın üstə,
Mən fərsiz övladam bəlkə də, Allah?
Nahaq yandırıram günə papağı,
Özüm məst oluram kölgədə, Allah!

Xocalı, Kəlbəcər imdad diləyir,
Gəlmir Qarabağdan Xanın avazı.
Dardan qurtarmasaq torpağı əgər,
Qeyrətsiz, şərəfsiz namərdik azı!..

Həkəridən əsən külək
Qoy oxşasın tellərini!
Qələbəyə səslə görək
Zəngəzurun ellərini!

Qeyrətə dolaq, qardaşım,
Ayaqdakı tüfəng kimi!
Vəlvələ salaq, qardaşım,
Əfsanəvi nəhəng kimi!

Düşmən pərən-pərən olsun,
Qoy ellər qalxsın ayağa!
Əzabımız unudulsun,
Son qoyulsun ayrılığa!

Beş gün kişi tək yaşayaq,
Halal etsin südün anam.
Deyim qeyrətli oğulam,
Deyim mən də bir insanam...

### ŞAH İSMAYIL GƏLƏ BƏLKƏ!..

Bu da bizim kəndimizdir,
Bu dağlar da bizim dağlar.
Əlçatmazdır Laçın, Mişni,
Həsrət, nisgil bizi dağlar.

Ərtəpə də öz yerində,
Həkəri də coşqun-daşqın.
Qartal süzür göylərində,
Biz isə didərgin, qaçqın.

Yüz illərin o tayından
Şah İsmayıl gələ bəlkə!..
Bu millət ya qalib ola,
Ya döyüşə, ölə bəlkə!..

### DÜNYANIN

Haqsızlıq başda, zirvədə,
At oynadır gədə-güdə;
Xarab olur gedə-gedə,
Çıxıb zibili dünyanın.

Sirli-sehrli nağıllı,
Nağılı şəkər-noğullu,
Üzdən baxanda ağıllı,
İçliyi dəli dünyanın.

Mərdi-namərdi qarışıb,
Sevinci-dərdi qarışıb,
Zəlil günüylə barışıb,
Qırılıb beli dünyanın.

### DAĞLARA

*Mən nə vaxtsa hündür bir nöqtədən*
*Laçın dağlarına baxacam ....ya mən, ya da ruhum ...*
**İradə MƏMMƏDOVA**

Nə yaman kövrəltdi bu sözlər məni,
Xəyal qanad açdı bizim dağlara.
Gözlər o cığırlar, o izlər məni,
Vəfasızmı çıxdım gözüm dağlara?!

Qeyrət coşar bir gün damarımızda,
Elim gəzər, qoşar dağlarımızda,
Kəklik qaqqıldaşar dağlarımızda,
Düşər səsim, ünüm, izim dağlara.

İçər Ərtəpəli göz yaşlarımı,
Əks edər sevincli baxışlarımı,
Həkəri duyacaq alqışlarımı,
Şöhlətəm, sürtəcəm üzüm dağlara...

### SƏNİ

Daşın, torpağın da qızıldır, zərdiir,
Qoruya bilmədik, a dağlar, səni.
İndi günlərimiz qəmdir-qəhərdir,
Arzulayır təşnə dodaqlar səni!..

Qartallar qıy çəkir, süzür göylərdə,
Yenə də xəyalım gəzir göylərdə;
Babaların ruhu dözür göylərdə,
Gözləyir yaxınlar, uzaqlar səni.

Həkəridə qızıl balıq yan gedir,
Həsrətlə, yanğıyla ürək, can gedir,
Qocası, qarısı, nə cavan gedir,
Şöhlətin ruhu da tez haqlar səni.

### O YERLƏR

Yenə xatirələr dilləndi, dindi,
Yuxumu göylərə çəkdi o yerlər.
Elə bil ki gözüm gördü sevindi,
Axı gözəllikdə təkdir o yerlər!..

Buludla öpüşən Laçın dağları -
Sevən könüllərin əhdi, ilqarı;
Yenə keçir qışı, gəlir baharı,
Qeyrətə susamış ərkdir o yerlər.

Qəlbim həsrətində, intizarında,
Yaşayır şairin duyğularında,
Ay Şöhlət, ömrünün son baharında
Tale sınağıdır, görkdür o yerlər...

### QƏLBİMİZDƏN BAŞLANIR...

*(nəğmə)*

Həqiqətin gözünə
Haçan dik baxa bilsək,
Qeyrətin diqtəsiylə
Tətiyi sıxa bilsək,
Onda bizimdir vətən,
Onda bizimdir torpaq!

**Nəqərat:**
Qəlbimizdən başlanır
Qələbənin sorağı,
Qeyrətlə alınacaq
Azərbaycan torpağı!..

Bir-birlə çəkişmənin
Varağını qatlasaq,
Qarabağda kükrəyib,
Zəngəzuru adlasaq,
Babaların ruhları
Qürur ilə baxacaq!..

**Nəqərat:**
Qəlbimizdən başlanır
Qələbənin sorağı,
Qeyrətlə alınacaq
Azərbaycan torpağı!..

Qanı coşub damarda,
Qüvvət tapıb qolunda,
Soydaşlarım birləşsə
Bir amalın yolunda,
Dağım dardan qurtarıb,
Düzüm nəfəs alacaq!..

**Nəqərat:**
Qəlbimizdən başlanır
Qələbənin sorağı,
Qeyrətlə alınacaq
Azərbaycan torpağı!..

### İNDİ

Nə səsimiz çatır, nə harayımız,
O dağlarda düşmən kefdədir indi.
Biz yanıb-qovrulur, alovlanırıq,
Satanlar qazancda, nəfdədir indi.

Boğazdan yuxarı vətənpərvərlər,
Gödən aşiqləri gödənpərvərlər,
Qarnını, cibini güdənpərvərlər
Sümük qapmaq üçün səfdədir indi.

Şöhlət, dərdimiz çox, deyilən deyil,
Nə yeyilən, nə də geyilən deyil;
Şair, qürurumuz əyilən deyil,
Amma acılar da müftədir indi.

### PAYIZ DUYĞULARI

İlin payız fəsli. Ömrün payızı.
Yaşıl xatirələr yenə bal dadır.
Sevmək istəyirəm yenə o qızı,
Heyf ki, əlçatmaz uzaqlardadır.

Qalıbdır gəncliyin dolaylarında
Bir vurğun aşiqlə bir nazlı gözəl.
Deyil ki adamın ixtiyarında,
Sevən ürəyinlə di bacar da gəl!..

Romantik günlərdən, şirin çağlardan
İndicə bir surət, bir xəyal qalıb.
Sevgilər cücərdən o ilk bahardan
Cavabı bilinməz min sual qalıb.

## Yurd həsrətli misralar

Sadə və təvazökar insan, şair - jurnalist, «Pillələr» qəzetinin baş redaktoru Şöhlət Abbası lap çoxdan - ötən əsrin 70- ci illərindən tanıyıram. 9-10-cu siniflərdə oxuyan vaxtlarımdan. Tale elə gətirib ki, bir neçə il dalbadal fizika və riyaziyyat üzrə orta məktəb şagirdləri arasında keçirilən olimpiadaların rayon turlarında eyni vaxtda iştirak etmişik. Açığı o vaxtlar Şöhlət əksər uşaqlardan yaxşı mənada fərqliliyi, özünəməxsusluğu ilə diqqətimi cəlb etdi. Yadımdadır ki, olimpiada başlanana qədər yaranmış boş vaxtdan istifadə edərək, uşaqlarla riyaziyyatın müxtəlif bölmələri üzrə suallaşardıq. Ən çox fəallıq göstərənlərdən biri də Şöhlət idi...

Aradan illər keçəndən sonra biz yenidən görüşdük. Mən o zaman kəndimizdə fizika müəllimi işləyirdim. Şöhlət Abbas isə «Laçın» qəzetinin redaksiyasında. Şöhlət Abbas demək olar ki, ardıcıl olaraq «Laçın» qəzetinin əksər saylarında rayon həyatından bəhs edən və digər mövzularla bağlı yazıları, habelə ara - sıra çap etdirdiyi şeirləri ilə oxucuların diqqətini cəlb etmişdi. Dəfələrlə bizim Güləbird kəndində, habelə məktəbimizdə olmuş, maraqlı reportajlar hazırlamışdır. Və yadımdadır ki, mənim ilk şeirimi - «Taleyimə düşən dünya» şeirini də «Laçın» qəzetində Şöhlət Abbas çap etdirmişdir. Mənim şeirimin əlyazmasını oxuyub xoşuna gəldiyini dedi. Və sonra «Laçın» qəzetinin redaksiyasında şeir və söz sənətindən, poeziyadan xeyli söhbət etdik. Söhbət əsnasında Şöhlət Abbas Əli Kərimin «İki sevgi» şeirini böyük şövqlə dedi...

Bunları deməkdə məqsədim odur ki, Şöhlət Abbas sözə, poeziyaya çox bağlı insandır. Onun qələmindən çıxan bir çox şeir nümunələri də bu dediklərimizin əyani sübutudur.

Şöhlət Abbas 25 ilə yaxındır ki, didərginlik, yurdsuzluq həyatı yaşayır. Elə buna görə də bu nisgil, bu həsrət onun yaradıcılığının ana xəttini təşkil edir.

Getdim dünyaları gəzdim - dolaşdım,
Yenə də ürəyim Laçında qaldı.
yaxud
Nə acıdır yurd həsrəti,
Nə şirindir Vətən, bülbül.
... Qazandığım ağ saçlardır,
Gəncliymdir itən, bülbül.

- deyən Şöhlət Abbas ağrı və nisgillərini çox səmimi və aydın bir dillə ifadə edə bilmişdir. Eləcə də Şöhlət Abbasın digər mövzularda yazdığı poeziya nümunələri öz orijinallığı, fikir yükü və poetikası ilə diqqəti cəlb edir.

Bu kitab Şöhlət Abbasın oxucularla ilk görüşüdür. Mən Şöhlət Abbasa yeni yaradıcılıq uğurları və ən ümdəsi ona doğma yurdlarımıza qayıtmaq gününün qismət olmasını arzulayıram. Və sözsüz ki, həmin Qələbə gününün şərəfinə Şöhlət Abbas daha möhtəşəm poeziya nümunələri yaradacaqdır.

*Cəbrayıl Qəhrəmanov,*
*Pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü.*




**Şöhlət Abbasın “Məni bağışlama!..” adlı şeirlər toplusu müəllifin ilk kitabıdır. Qarabağ müharibəsinin salnaməsini yazan ilk jurnalistlərdən biri, doğma torpaq həsrətlisi bir laçınlı kimi vətənpər-vərlik mövzusu onun yaradıcılı-ğında mühüm yer tutur. Əlbəttə, məhəbbətə, təbiətə, insan ülviyyəti-nə və digər əbədi mövzulara aid şeirlər də olduqca oxunaqlı, mənə yüklüdür. Çünki bütün yazdıqları onun öz duyğularının, yaşantıları-nın bəhrəsidir.**

**Əziz oxucular, inanırıq ki, kitabı maraqla, birnəfəsə oxuyacaqsınız... Məni bağışlama!..” mənim yaşantılarımdır...**